# ÇƏTİN SINAQ

## Bu gün Ağdamın "Qarabağ" klubu Belçika "Gent"ini qəbul edəcək

**Bu gün diqqətlər yenə Tofiq Bəhramov adına Respublika Stadionunda olacaq. UEFA Konfrans Liqasının pley-off mərhələsinin ilk matçında Ağdamın "Qarabağ" klubu Belçika "Gent"ini qəbul edəcək. Tribunalarda anşlaq olacaq, ekranlar qarşısında milyonların qəlbi "Qarabağ"la döyünəcək.**



**UEFA Konfrans Liqası**
**Pley-off, ilk oyun**

**21:45 "Qarabağ"- "Gent"(Belçika)**
Baş hakim: Məhəmməd Al-Hakim (İsveç)
*Bakı, Tofiq Bəhramov adına Respublika Stadionu*



Matç öncəsi "Qarabağ"ın heyətində ciddi problemlərin olduğunu deyə bilərik. Hər halda qapıçı Şahruddin Məhəmmədəliyevin zədələnərək yaşıl meydandan uzun müddətli kənarda qalması, müdafiənin dayaqlarından olan Kevin Medinanın cəriməli olması ağdamlıların oyununa təsir edə bilər. Xüsusilə kolumbiyalı müdafiəçinin topu oyuna daxil etmədəki rolunu vurğulamaq olar. Hələ üstəlik, Ağdam klubunun hücum gücündə əsas fiqur sayılan Kadi Borqesin komandadan ayrılması da Qurban Qurbanovun oyun planında ciddi boşluqlar yarada bilər.

Yeni transferlər Diakabi, Benzia və Cicadan qısa müddətdə qeyri-adi nəsə gözləməyə dəyməz. Bütün bunların fonunda əlbəttə ki, qapıçı mövqeyi sual doğurur. Qurban Qurbanovun qapıya Luka Quqeşaşvili, yoxsa gənc qapıçı Amin Ramazanovu qoyacağını təxmin etmək çətindir. Amma bundan əvvəlki daha çətin qarşılaşmalarda təcrübəli mütəxəssis gənclərə inam bəsləyib. Düşünürük ki, çərçivəni də elə gənc qapıçıya həvalə edə bilər. Ancaq bu halda rəqib futbolçuların qapıya uzaqdan zərbələr endirmələrinə mane olmaq lazımdır. Daha həyəcanlı görünən Aminə bu səddi aşmaq üçün həm azarkeş dəstəyi, həm də bir-iki epizod qurtarışlar lazımdır.

"Qarabağ" 3-cü zonada pressinq tətbiq edərək belçikalıların 1-ci və 2-ci zonalardan keçidlərini bağlamalıdır. Bu halda meydançanın rəqibə adi hissəsində itirilən topun tez bir müddətdə qazanılması komandamıza əlavə üstünlüklər yaradar.

"Gent" 3-5-2 oyun planına üstünlük verir. Müdafiənin mərkəzindən hücumlara sürətli keçidləri var. Yəni 1-ci zonadan 2-ci zonaya keçid oyununu çox yaxşı icra etməyi bacarır. Rəqibin müdafiəçisi Maykl Nqado - Nqacui bu mənada daha yaxşı təsir bağışlayır. "Gent" meydançada oyunçu paylaşımı, mövqe seçimi və sığortalamasını mükəmməl həyata keçirir.

Vurğulayaq ki, müdafiənin mərkəzində daha sayıq görünən belçikalılar cinahlarda heç də uğurlu deyil. Çünki matçın müəyyən hissələrində bəzən mərkəz müdafiəçiləri hücuma qoşularkən itirilən toplardan sonra geriyə qayıtmada ciddi problem yaşayırlar. Belə ki, hücumda çoxalarkən, müdafiə olunmaqda say baxımından geri qalan "Gent"i komandamız səbirli oyunla, həyəcana yol vermədən məğlub edə bilər.

"Qarabağ"ın üstün tərəflərindən biri odur ki, bu cür müdafiə olunan komandaların müqavimətini cinahlardan yarmağa çalışır. Cinahlarda fərdi keçidləri daha yaxşı alınan oyunçu Abdullah Zubirdir. Baş məşqçi hücumun sivri ucunda Musa Qurbanova, sol cinahda Diakabiyə, sağ cinahda isə Ramil Şeydayevə şans verə bilər.

"Gent"in hücum xəttində yer alan oyunçuları sürətli, atletik keyfiyyətlərə malikdirlər. Onlardan Huqo Kuypers əla mövsüm keçirir. O, cari mövsümdə keçirdiyi oyunlarda 18 qol vurub, 4 məhsuldar ötürmə edib. Həm sol, həm sağ ayağını yaxşı işlədə bilən 26 yaşlı forvard Belçika çempionatında qapıya ən çox zərbə endirən iki hücumçudan biridir.

Onu da qeyd edək ki, əsas qol silahı Tarik Tissudalinin olmaması "Qarabağ" üçün müsbət haldır. Uzun müddətdir, zədədən əziyyət çəkən forvard ağdamlılarla görüşləri buraxacaq.

Qısa ötürmələrə üstünlük verən "Gent" standart vəziyyətlər zamanı təhlükəlidir. Öz qapısı qarşısında isə belə məqamlarda təhlükəni sovuşdurmaq üçün çətinlik çəkmir. "Qarabağ" belçikalılara qarşı üstünlük yaratmaq üçün eyni zamanda uzaqdan endirilən zərbələrdən maksimum istifadə etməlidir. Belə ki, rəqibin qapıçısı bu cür hallarda, adətən, səhvlərə yol verir.

Qışda "Gent"i 3 əsas oyunçusu tərk edib. Onların arasında İbrahim Salah və Andreas Hançe-Olsenin gedişi xüsusi qeyd olunmalıdır. Hər iki futbolçu mövsümün ilk yarısında əsas heyət üzvü olub. Yarımmüdafiəçi Elişa Ovusu da "Gent" üçün ciddi itkidir. Bununla belə, Yens Peter-Hayqe, Honq Hyun-Sok kimi yaradıcı oyunçulara malik Belçika komandası asanlıqla rəqib qapısı qarşısında təhlükə yaratmağı bacarır.

Hər bir halda ümid edirik ki, Ağdam klubu növbəti dəfə bizi cəsarətli və məhsuldar oyunu ilə sevindirəcək.

Uğurlar, "Qarabağ"!

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*